# BEYNƏLXALQ VƏKILLƏR ASSOSIASIYASININ (“BVA”) BEYNƏLXALQ ARBITRAJDA MARAQLARIN TOQQUŞMASI ÜZRƏ TƏLIMATLARI

Tərcüməyə dair qeyd

Bu sənəd ilkin olaraq Beynəlxalq Vəkillər Assosiasiyasının işçi qrupu tərəfindən ingilis dilində hazırlanmış və Beynəlxalq Vəkillər Assosiasiyası Şurasının qətnaməsi ilə qəbul edilmişdir.

İngilis dilindəki mətnlə hər hansı digər dilə edilmiş tərcümələr arasında uyğunsuzluq olduqda, ingilis dilindəki mətn üstün tutulur.

Tərcümə edənlər: Sezər Allahverdiyev və Camal Əzimov (Bakı Dövlət Universiteti); Əjdər Allahverdiyev, Mansur Səmədov və Prof. Dr. Kəmalə Mehdiyeva (Bakı Arbitraj Mərkəzi, Azərbaycan Arbitraj Assosiasiyası).

## Ön söz

Beynəlxalq Vəkillər Assosiasiyasının ("BVA") Beynəlxalq arbitrajda maraqların toqquşması üzrə Təlimatları ("Təlimatlar") ilk dəfə (19 mütəxəssisdən BVArət İşçi Qrupun tərəfindən) BVA-nın Arbitraj Komitəsi tərəfindən hazırlanmış və 2004-cü ildə BVA Şurası tərəfindən qəbul edilmişdir. Təlimatlar qısa müddət ərzində beynəlxalq arbitraj icmasında geniş tanındı və arbitrlərin qərəzsizliyyətinə və müstəqilliyinə, həmçinin müəyyən hallarda açıqlamalara münasibətdə tətbiqi gözlənilən və özündə vahid standartlar əks etdirən etibarlı "yumşaq hüquq" aləti kimi dəyərləndirildi. Qırmızı, narıncı və yaşıl siyahılardan ibarət innovativ "işıqfor sistemi" bir çox cəhətdən qlobal səviyyədə qəbul edilmiş normaya çevrilmişdir. Təlimatlar mütəxəssislər tərəfindən bir qayda olaraq tətbiq edilir və əksər arbitraj institutları, eləcə də məhkəmələr bu sahədə əsas prinsiplər toplusu kimi Təlimatlara istinad edirlər. Bu cür Təlimatlara ehtiyac mübahisəsizdir. Yeganə məsələ, arbitraj təcrübəsində baş verən dəyişiklikləri nəzərə alaraq, Təlimatların zamanla necə təkmilləşdirilməlidir.

BVA Arbitraj Komitəsinin hər on ildən bir öz qaydalarının və təlimatlarının yenilənməli olub-olmamasını qiymətləndirmək ənənəsinə uyğun olaraq, Beynəlxalq arbitrajda maraqların toqquşması üzrə BVA Təlimatları ilk dəfə 2014-cü ildə (27 üzvdən ibarət altkomitə tərəfindən aparılmış baxışın nəticəsi olaraq) yenidən baxılmışdır. Təlimatların praktiki tətbiqinin aydınlaşdırma və ya təkmilləşdirmə ehtiyacını yaradıb-yaratmadığını empirik

təhlil yolu ilə müəyyən etməklə, Təlimatların yenidən baxılıb-baxılmaması və necə nəzərdən keçirilməli olduğu diqqətlə nəzərdən keçirilməlidir. Geniş tanınan prinsiplər toplusu ilə işləyərkən, dəyişikliklərin həcmi barədə qərar vermək mahiyyət etibarilə həssas məsələdir, çünki məqsəd mövcud rejimin əsaslarına toxunmadan onu təkmilləşdirmək olmalıdır.

Kommersiya və investisiya arbitrajını, habelə ixtisaslaşmış arbitraj mexanizmlərini (məsələn, dənizçilik, idman, əmtəə), həmçinin arbitr kimi fəaliyyət göstərən hüquqşünas və qeyri-hüquqi ixtisaslı peşəkarları və s. əhatə edən Təlimatların geniş tətbiqi ilə əlaqədar Təlimatların nə qədər ciddi olması ilə bağlı potensial mübahisələr yarana bilər. Bu kimi bütün meyarlar nəzərə alınmalıdır.

BVA Arbitraj Komitəsinin həmsədrləri Samaa Haridi (2022) və Valeria Galíndez (2023), habelə BVA Arbitraj Təlimatları və Qaydaları Altkomitəsinin (bundan sonra – Altkomitə) həmsədri Erica Stein-in rəhbərliyi altında, sonradan Claudia Frutos-Peterson-un da qoşulduğu 2014-cü il Təlimatlarının yenidən baxılması məqsədilə yeni İşçi Qrup yaradılmışdır. Altkomitə tərəfindən 2022-ci ildə arbitraj mütəxəssisləri arasında keçirilmiş sorğuda Təlimatların hələ də faydalı və effektiv vasitə olaraq qaldığını, və onların tam şəkildə yenidən işlənməsinə ehtiyac olmadığını müəyyən olunmuşdur. Bununla belə, sorğu Təlimatların modernləşdirilməsinə və ya təkmilləşdirilməsinə ehtiyac ola biləcək sahələri müəyyəm etmişdir: (i) arbitrin məlumat açıqlamaları; (ii) üçüncü tərəflər tərəfindən maliyyələşdirməsi; (iii) əvvəlki mövqedən irəli gələn maraqlar toqquşması; (iv) müxtəlif yurisdiksiyalarda hüquqşünaslar üçün təşkilati modellər (məsələn, barristerlər

kollegiyası, “verein”lər və s. ); (v) ekspert şahidləri; (vi) suveren dövlətlər və onların agentlikləri və qurumları; (vii) hüquqşünas olmayan arbitrlər; (viii) sosial media. Beləliklə, İşçi qrupun üzvləri bu məsələlərin hər biri ilə məşğul olmaq üçün komandalara bölünmüş, əlavə olaraq doqquzuncu komanda 2022-ci il sorğusunda müəyyən edilməmiş, lakin Təlimatların yenilənməsində nəzərə alınması mümkün olan digər məsələlərin olub-olmadığını qiymətləndirmək üçün formalaşdırılmışdır. İşçi qrupun rəhbərləri və üzvləri (ümumilikdə 60-dan çox şəxs) bir il ərzində öz tapşırıqlarını tamamlamaq üçün möhtəşəm səylər göstərmişlər. Təlimatların yenilənmiş versiyası dünya miqyasında yüzlərlə arbitraj institutları daxil olmaqla ictimai müzakirə üçün ictimaiyyətə təqdim edilmişdir. Şərhlər toplanmış və təhlil edilmiş, xüsusən də rəylər arasında konsensus müşahidə edildiyi hallarda onlar yekun versiyasının qəbulunda nəzərə alınmışdır.

2024-cü il Təlimatlarının Giriş hissəsində Təlimatların ümumi məqsədləri və son düzəlişlər əks olunur, ardınca qərəzsizlik, müstəqillik və açıqlama ilə bağlı Ümumi Standartlar (I Hissə), eləcə də Ümumi Standartların praktiki tətbiqi halların siyahıları (“Tətbiq Siyahıları”) (II Hissə) təqdim edilir. Təlimatlara edilmiş dəyişikliklər I Hissədə əks olunmuş Ümumi Standartların əhəmiyyətini vurğulamağa yönəlmişdir; bu Standartlar hər zaman nəzərə alınmalı və maraqlar toqquşmasının qiymətləndirilməsi və açıqlamanın zərurətinin müəyyənləşdirilməsi üçün II Hissədəki Tətbiq Siyahılarından daha az əhəmiyyətli hesab edilə bilməz.

II Hissədə Tətbiq Siyahılarına edilmiş dəyişikliklər I Hissədə gücləndirilmiş Ümumi Standartlar kontekstində nəzərdən keçirildikdə, Təlimatlar hazırda istifadəçilər və

arbitraj icması tərəfindən arbitrlərdən gözlənilən məlumat açıqlama dərəcəsini əks etdirilir.

BVA Arbitraj Komitəsi Valeria Galíndez və Erica Stein-ə onların misilsiz və böyük əməklərinə görə, həmçinin İşçi Qrupun Katiblərinə və Komanda Rəhbərlərinə təşəkkürlərini bildirir. Xüsusi minnətdarlıq, əsaslı həllərin tapılmasına göstərdiyi davamlı dəstək və həvəsə görə həmçinin BVA -nın sabiq prezidenti və Arbitraj Komitəsinin həmsədri David Rivkin-ə bildirilir.

Təlimatları www.ibanet.org/resources saytından yükləmək mümkündür:

**Xavier Favre-Bulle**
**Chiann Bao**
*Arbitraj Komitəsinin həmsədrləri*
Fevral 2024

## Giriş

**1.** Beynəlxalq arbitrajda tərəflərin potensial maraqlar toqquşmasını müəyyənləşdirib qiymətləndirməsi, habelə institutlar və milli məhkəmələrə arbitrin etirazı ilə bağlı məsələləri düzgün şəkildə həll etmək üçün arbitrlərdən müvafiq məlumatları açıqlamaları tələb olunur. Bununla belə, maraqlar toqquşması ilə bağlı məsələlər incəliklər ehtiva etdiyindən və cavablar konkret işin hallarından asılı olduğundan, bu proses müəyyən çətinliklər yarada bilər. Bu səbəbdən 2004-cü ildə BVA Arbitraj Komitəsi bir sıra amilləri – o cümlədən (i) arbitrlərin müstəqilliyinin və qərəzsizliyinin fundamental əhəmiyyətini, (ii) tərəflərin iradə muxtariyyəti prinsipini, (iii) məlumat açıqlamasının vaxtı, xarakteri, həcmi, yükü və digər praktiki cəhətlərini, eləcə də (iv) əsassız etirazlardan irəli gələ biləcək nəticələri və xərcləri – nəzərə alaraq bu mövzuda təlimatlar dərc etmişdir.

**2.** 2004-cü il Təlimatları həmin dövrdə mövcud olan standartların tətbiqində kifayət qədər aydınlıq və vahidlik olmadığı fikrini əks etdirirdi. Bu səbəbdən 2004-cü il Təlimatları "Ümumi Standartlar və Standartlara dair İzah Qeydləri"ni ("Ümumi Standartlar") təsdiq etmişdir. Ümumi Standartlar maraqlar toqquşmasının mövcudluğunu (obyektiv "ağlabatan üçüncü şəxs meyarı" əsasında)

qiymətləndirmək və məlumat açıqlama öhdəliyini (subyektiv "tərəflərin baxış bucağı" meyarı əsasında) müəyyənləşdirmək üçün əsas mənbə olaraq hazırlanmışdır

**3.** Bununla belə, təcrübənin daha böyük vahidliyinə nail olmaq və əsassız etirazlarının, arbitrin öz təşəbbüsü ilə çəkilməsi və ya uzaqlaşdırılması hallarının qarşısını almaq məqsədilə 2004-cü il Təlimatlarında, Ümumi Standartları izah etmək, arbitrlərə məlumatların açıqlanmasında, tərəflərə isə açıqlanmış məlumatların arbitrin müstəqilliyi və qərəzsizliyi barədə şübhə yarada bilib-bilməyəcəyini qiymətləndirməkdə kömək etmək məqsədi ilə ("Qırmızı", "Narıncı" və "Yaşıl" Siyahılar kimi istinad edilən) xüsusi hallar sadalanmışdır.

1. Qırmızı siyahıda göstərilən hallarda maraqlar toqquşmasının mövcud olduğu hesab olunur. Yaşıl siyahıda göstərilən hallarda maraqlar toqquşmasının və ya belə bir təəssürat doğuran halın olmadığı hesab olunur. Narıncı siyahıda göstərilən hallar isə konkret işin faktiki hallarından asılı olaraq tərəflərin nəzərində şübhə doğura bilər və buna görə də müvafiq məlumatlar Ümumi Standart 3-ə əsasən açıqlanmalıdır. Bu siyahılar ("Tətbiq Siyahıları") 2014-cü ildə Təlimatların yenidən işlənməsi zamanı yenilənmişdir. 2024-cü il redaksiyasında isə həm Ümumi Standartlar, həm də Tətbiq Siyahıları 2014-cü ildən bəri onların praktiki tətbiqi nəzərə alınmaqla yenilənmiş və daha çox təkmilləşdirilmişdir.

**4.** Bu Təlimatlar BVA Arbitraj Komitəsinin aşağıda göstərilən Ümumi Standartlarda ifadə olunmuş prinsiplərə əsaslanan, mövcud müasir beynəlxalq təcrübəyə dair

anlayışını özündə əks etdirir. Ümumi Standartlar və Tətbiq Siyahıları qanunlara, təcrübələrə, presedent hüququna və yurisdiksiyaların kəsişməsindəki digər qərarlara və beynəlxalq arbitrajın əsas iştirakçılarının mühakimə və təcrübəsinə əsaslanır. Təlimatlar beynəlxalq arbitrajın dürüstlüyünü, nüfuzunu və səmərəliliyini təmin etmək məsuliyyətini daşıyan müxtəlif tərəflərin, hüquqşünasların, arbitrlərin və arbitraj institutlarının maraqlarını balanslaşdırmağa çalışır. Əvvəlki təcrübədə olduğu kimi, 2014-cü il Təlimatlarının yenilənməsi üzrə İşçi Qrupun və 2021–2023-cü illərdə fəaliyyət göstərmiş Arbitraj Təlimatları və Qaydaları Altkomitəsinin üzvləri BVA-nın illik iclaslarında keçirilmiş ictimai müzakirələr, beynəlxalq arbitraj icması ilə digər görüşlər və sorğular vasitəsilə aparıcı arbitraj institutlarının, korporativ hüquqşünasların və beynəlxalq arbitrajda iştirak edən digər şəxslərin rəylərini toplamış və nəzərə almışlar. Alınmış şərhlər ətraflı şəkildə nəzərdən keçirilmiş və onların bir çoxu qəbul edilmişdir. BVA Arbitraj Komitəsi çoxsaylı institut və fərdlərin Komitənin təkliflərinə göstərdiyi ciddi diqqətə görə minnətdarlığını bildirir.

**5.** Təlimatlar tərəflərin təmsilçiliyinin hüquqşünaslar və ya hüquqşünas olmayan şəxslər tərəfindən həyata keçirilməsindən, habelə arbitr qismində hüquqi ixtisasa malik olmayan mütəxəssislərin çıxış etməsindən asılı olmayaraq bütün beynəlxalq arbitraja şamil edilir.

**6.** Bu Təlimatlar tətbiq edilən milli qanunvericilik, arbitraj qaydaları, davranış kodeksləri və ya tərəflərin seçmiş olduğu digər məcburi aktları əvəz etmir. Bununla belə, 2004 və 2014-cü illərin Təlimatlarında, habelə BVA Arbitraj Komitəsinin digər qayda və təlimatlar toplusunda olduğu

kimi, yenidən işlənmiş Təlimatlar da beynəlxalq arbitraj icması tərəfindən geniş qəbul ediləcəyi, və qərəzsizlik və müstəqilliklə bağlı mühüm məsələlərin həllində tərəflərə, hüquqşünaslara, arbitrlərə, institutlara və məhkəmələrə dəstək olacaqdır. BVA Arbitraj Komitəsi Təlimatların sağlam məntiq əsasında və həddindən artıq formalist interpretasiyaya yol verilmədən tətbiq edilməsini tövsiyə edir.

**7.** Təlimatların I Hissəsi həmişə nəzərə alınmalı olan prinsipləri ehtiva edir. II Hissədə əks olunmuş Tətbiq Siyahıları təcrübədə tez-tez rast gəlinən çoxsaylı müxtəlif halları əhatə edir, lakin bu siyahılar bütün halları əhatə etmir və siyahıların bütün halları əhatə etməsi də iddia olunmur. BVA Arbitraj Komitəsi Təlimatların faktiki istifadəsini öyrənməyə və daha da təkmilləşdirilməsinə davam edəcək.

**8.** 1987-ci ildə BVA "Beynəlxalq arbitrlər üçün etik davranış Qaydaları"nı dərc etmişdir. Həmin Qaydalar bu Təlimatlardan daha çox mövzunu əhatə edir və Təlimatlarda müzakirə olunmayan məsələlər üzrə tətbiq olunmağa davam edir. Təlimatlar burada müzakirə olunan məsələlərlə bağlı Etika Qaydalarını əvəz edir.

## I hissə: Qərəzsizlik, Müstəqillik və Məlumat Vermə Öhdəliyinə Dair Ümumi Standartlar

### (1) Ümumi Prinsip

Arbitr təyin olunduğu andan etibarən yekun qərar qəbul edilənə və ya arbitraj icraatına digər şəkildə xitam verilənə qədər tərəflərə münasibətdə qərəzsiz və müstəqil olmalıdır.

***Ümumi Standart 1-ə dair izah:***

Bu Təlimatların əsasını təşkil edən fundamental prinsip ondan ibarətdir ki, arbitr arbitraj işi üzrə təyinatı qəbul etdiyi anda tərəflərə münasibətdə qərəzsiz və müstəqil olmalı və arbitraj icraatının gedişi boyunca – tətbiq olunan qaydalara əsasən müvafiq müddətin əvvəlcədən bilindiyi və ya asanlıqla müəyyən edilməsinin mümkün olduğu hallarda yekun qərarın düzəldilməsi və ya şərhi üçün nəzərdə tutulan müddət də daxil olmaqla – qərəzsiz və müstəqil qalmalıdır. Bu öhdəlik arbitraj qərarının müvafiq məhkəmələr və ya orqanlarda mübahisələndirildiyi dövrə şamil edilmir. Beləliklə, arbitrin bu öhdəliyi Arbitraj Tribunalına yekun qərar qəbul etdikdə və tətbiq olunan qaydalar çərçivəsində icazə verilən düzəliş və ya şərhi həyata keçirildikdə və ya müvafiq müraciət üçün müddət başa çatdıqda, habelə icraata xitam verildikdə (məsələn, barışıq nəticəsində) və ya arbitrin səlahiyyəti (mandatı) başqa halda sona çatdıqda bitir. Əgər qərarın ləğvi və ya başqa icraat nəticəsində mübahisə eyni Arbitraj Tribunalına qaytarılarsa, məlumatların yenidən açıqlanması və mümkün maraqlar toqquşmalarının nəzərdən keçirilməsi tələb olunacaqdır.

### (2) Maraqlar toqquşması

**(a)** Əgər arbitr öz qərəzsizliyi və ya müstəqilliyi barədə hər hansı şübhəyə malikdirsə, arbitr işə təyin edilməsi ilə bağlı təklifi rədd etməli və ya arbitraj icraatı artıq başlayıbsa, arbitr kimi fəaliyyətini davam etdirməkdən imtina etməlidir.

**(b)** Ümumi Standart 4-ə əsasən tərəflərin arbitri qəbul etdiyi hallar istisna olmaqla, müvafiq faktlar və hallar barədə məlumatı olan ağlabatan üçüncü şəxsin nöqteyi-nəzərindən arbitrin qərəzsizliyi və ya müstəqilliyi ilə bağlı əsaslandırılmış şübhələrə səbəb olan faktlar və ya hallar mövcud olduqda və ya təyinatdan sonra yarandıqda, eyni prinsip tətbiq edilir.
**(c)** Müvafiq faktlar və hallar barədə məlumatlı olan ağlabatan üçüncü şəxs arbitrin qərarının qəbul edilməsində tərəflərin təqdim etdiyi işin mahiyyətindən başqa digər amillərin arbitra təsir göstərə bilməsi ehtimalının olduğu qənaətinə gələrsə, şübhələr əsaslandırılır.
**(d)** Arbitrin qərəzsizliyi və ya müstəqilliyi ilə bağlı əsaslı şübhələr, etirazdan imtinanın yolverilməz olduğu halların Qırmızı Siyahısında təsvir edilmiş halların hər birində mütləq şəkildə mövcuddur.

***Ümumi Standart 2-yə dair izah:***

**(a)** Əgər arbitrin öz qərəzsizliyinə və müstəqilliyinə dair şübhəsi varsa, o arbitr təyin edilməsi ilə bağlı müraciəti qəbul etməməli və ya arbitr kimi fəaliyyətini davam etdirməkdən imtina etməlidir. Bu standart icraatın hansı mərhələdə olmasından asılı olmayaraq tətbiq edilməlidir. Bu məsələ çaşqınlığın qarşısını almaq və arbitraj icraatına inamı artırmaq üçün Təlimatlarda müəyyən edilmiş əsas prinsipdir.
**(b)** Ümumi Standart 2-də istifadə olunan "qərəzsizlik və ya müstəqillik" ifadəsi Birləşmiş Millətlər Təşkilatının Beynəlxalq Ticarət Hüququ üzrə Komissiyasının (UNCITRAL) Model Qanununun arbitrlərin səlahiyyətinə (mandatlarına) xitam verilməsinə dair geniş qəbul olunmuş 12-ci maddəsinə əsaslanır. UNCITRAL Model Qanununun 12(2)-ci maddəsində qeyd edildiyi kimi, arbitrə etiraz etmək üçün arbitrin qərəzsizliyi və müstəqilliyinə dair əsaslı şübhələr və görünüşə əsaslanan obyektiv meyardan ("ağlabatan üçüncü şəxs meyarı") istifadə olunur. Arbitr

təyin edilməsi ilə bağlı müraciəti rədd etmək və ya arbitr kimi fəaliyyətini davam etdirməkdən imtina etmək barədə qərar qəbul edərkən arbitr müvafiq faktları və ya halları qiymətləndirmək üçün obyektiv standartı nəzərə almalıdır. Arbitr, 4-cü Ümumi Standarta uyğun olaraq obyektiv maraqların toqquşmasından imtina edilmədiyi halda, obyektiv maraqlar toqquşması mövcud olduğu üçün 2(b) Ümumi Standartına uyğun olaraq təyinatı qəbul etməkdən və ya xidmətini davam etdirməkdən imtina etməlidir.

**(c)** Əsaslı şübhələr mövcud olduqda, məsələn etirazdan imtinanın yolverilməz olduğu halların Qırmızı Siyahısında təsbit edilən hallardakı kimi, arbitr təyinatı qəbul etməkdən və ya xidmətini davam etdirməkdən çəkinməlidir. Bununla belə, etirazdan imtinanın yolverilən hallar üzrə Qırmızı Siyahıda əksini tapmış hallarda göstərildiyi kimi, əsaslı şübhələrin mövcudluğu arbitrin üzərinə Ümumi Standart 3-ə uyğun olaraq məlumat açıqlamağa öhdəlik qoya bilər.

**(d)** Əsaslı şübhə standartına əsaslanan qanunlar və qaydalar çox vaxt həmin standartın tərifini müəyyən etmir. Bu Ümumi Standart isə belə hallarda standartı müəyyən etmək üçün müəyyən kontekst təqdim etmək məqsədi daşıyır. Məsələn, heç kim öz işində hakim ola bilmədiyi üçün arbitr ilə tərəf eyni şəxs ola bilməz. Bu səbəbdən tərəflər belə bir vəziyyətdə yaranan maraqlar toqquşmasından imtina edə bilməzlər.

### (3) Arbitrin məlumat açıqlaması

**(a)** Tərəflərin fikrincə arbitrin qərəzsizliyi və ya müstəqilliyi barədə şübhələr doğura biləcək fakt və ya hal mövcuddursa, arbitr həmin fakt və ya halları arbitr təyin edilməsi ilə bağlı müraciəti qəbul etməzdən əvvəl və ya sonra onlardan xəbər tutarsa, ən qısa müddət ərzində tərəflərə, arbitraj institutuna və ya digər təyin edən orqanına (əgər belə orqan mövcuddursa və tətbiq olunan reqlamentlər belə tələb edirsə), həmçinin varsa, digər arbitrlərə açıqlamalıdır.

Ümumi Standart 7(d)-nin araşdırma aparmaq öhdəliyini nəzərə almaqla, faktların və halların açıqlanmasının lazım olub-olmadığını müəyyən edərkən, arbitrə məlum olan bütün məlumatların arbitr nəzərə almalıdır.

**(b)** Gələcəkdə yarana biləcək fakt və hallardan irəli gələn mümkün maraqlar toqquşması ilə bağlı əvvəlcədən verilmiş bəyanat və ya etiraz Ümumi Standart 3(a)-ya əsasən arbitrin məlumat açıqlama öhdəliyindən azad etmir.

**(c)** Ümumi Standartlar 1 və 2(a)-ya əsasən məlumatları açıqlamış arbitrlər, açıqlanan faktlara baxmayaraq, özlərini tərəflərə münasibətdə qərəzsiz və müstəqil hesab edir və bu səbəbdən arbitr kimi öz vəzifələrini yerinə yetirmək qabiliyyətinə malikdirlər. Əks halda, arbitrlər namizədlikdən və ya təyinatdan imtina etməli, yaxud istefa verməli idilər.

**(d)** Arbitrin müəyyən faktları və ya halları açıqlamalı olub-olmadığı ilə bağlı istənilən tərəddüdlər məlumatın açıqlanması lehinə həll edilməlidir.

**(e)** Arbitrin məlumat vermə öhdəliyinin olduğu hallarda peşə sirri qaydaları və ya peşə fəaliyyətinə dair digər qaydalar, davranış normaları məlumatların açıqlanmasına mane olursa , arbitr təyin edilməsi ilə bağlı müraciəti qəbul etməməli və ya istefa verməlidir.

**(f)** Arbitraj prosesinin mərhələsi, arbitrin fakt və şəraitin açıqlanmalı olub-olmamasına dair qərarına təsir göstərməməlidir.

**(g)** Tərəflərin nəzərində arbitrin qərəzsizliyi və ya müstəqilliyi barədə şübhə yarada biləcək müəyyən faktların və halların arbitr tərəfindən açıqlamaması mütləq şəkildə maraqlar toqquşmasının mövcud olduğuna və ya diskvalifikasiya olmasına dəlalət etmir.

***Ümumi Standart 3-ə dair izah:***

**(a)** Ümumi Standart 3(a)-ya əsasən arbitrin məlumat vermək vəzifəsi tərəflərin özləri üçün əhəmiyyət kəsb edə biləcək faktlar və ya hallar barədə məlumatlı olmaq marağının olması

prinsipindən irəli gəlir. Ümumi Standart 3(d) öz növbəsində müəyyən edir ki, hər hansı fakt və ya halın açıqlanmalı olub-olmaması ilə bağlı tərəddüdlər mövcuddursa, məlumatın açıqlanması lehinə həll edilməlidir. Lakin, Yaşıl Siyahıda göstərilən hallardakı kimi, obyektiv nöqteyi-nəzərdən maraqlar toqquşmasına dair işarə və ya faktın tərəflərin nəzərində olmadığı hallarda Ümumi Standart 2-yə əsasən arbitrin məlumat verməsi tələb olunmur. Bundan əlavə, Ümumi Standart 3(c)-də qeyd olunduğu kimi, məlumatın açıqlanması, açıqlanan faktların arbitrin vəzifədən uzaqlaşdırılmasına səbəb olacağı mənasını daşımır. Ümumi Standart 3(a)-ya əsasən, məlumat açıqlama öhdəliyi davamlı xarakter daşıyır.

**(b)** BVA Arbitraj Komitəsi potensial arbitrlərin bəzən "əvvəlcədən imtina" (‘advance waivers’) deyə adlandırılan və gələcəkdə yarana biləcək fakt və hallara, habelə bu fakt və hallardan irəli gələ biləcək maraqlar toqquşmalarına dair verilən bəyanatlardan istifadə etməsini də nəzərdən keçirmişdir. Bu cür bəyanatlar Ümumi Standart 3(a)-ya əsasən, arbitrin davam edən məlumat vermə öhdəliyini aradan qaldırmır. Bununla belə, bu Təlimatlar əvvəlcədən verilmiş bəyanat və ya etirazın etibarlılığı və təsiri ilə bağlı bir mövqe tutmur, çünki əvvəlcədən verilmiş bəyanat və ya imtinanın etibarlılığı və təsiri məhz həmin bəyanat və ya etirazın müvafiq mətni, mövcud hallar və tətbiq olunan hüquq əsasında qiymətləndirilməlidir.

**(c)** Məlumatların açıqlanması maraqlar toqquşmasının mövcud olduğu mənasına gəlmir. Açıqlama verən arbitrlər açıqlanan faktlara baxmayaraq, özlərini qərəzsiz və müstəqil olduğunu hesab edirlər, əks halda arbitr təyinatından imtina edər və ya istefa verərdi. Bu səbəbdən, məlumatları açıqlayan arbitr arbitr vəzifələri icra etmək qabiliyyətinə malik olduğunu hiss edir. Məlumatların açıqlanmasının məqsədi tərəflərə arbitrin qiymətləndirməsi ilə razılaşıb-

razılaşmadıqlarını müəyyən etmək və arzu etdikləri halda, müvafiq vəziyyəti daha dərindən araşdırmaq imkanlarını verməkdir. Bu Ümumi Standart isə məlumat açıqlamasının özlüyündə arbitrin vəzifədən kənarlaşdırılmasına kifayət edəcək şübhələrin mövcudluğunu nəzərdə tuta bilməyəcəyini və hətta kənarlaşdırma lehinə prezumpsiya yarada bilməyəcəyini açıq şəkildə aydınlaşdırır. Bunun əvəzinə, hər hansı etiraz yuxarıda əks olunan Ümumi Standart 2-nin İzahında göstərildiyi kimi, obyektiv meyarı yerinə yetirildiyi halda qəbul edilə bilər.

**(d-f)** Məlumatların açıqlanması və ya və ya arbitrin vəzifədən kənarlaşdırılması (Ümumi Standartlar 2 və 3-ə uyğun olaraq) arbitrajın icraatının hər hansı mərhələsindən asılı olmamalıdır. Arbitrin məlumat açıqlamasını, təyinatdan və fəaliyyətini davam etdirməsindən imtina etməsini müəyyən edərkən icraatın cari mərhələsi və ya uzaqlaşdırmanın doğuracağı nəticələr deyil, yalnız faktlar və hallar nəzərə alınmalıdır. Arbitraj icraatı başladıqdan sonra arbitrin uzaqlaşdırılması praktiki baxımdan çətinliklər yaratsa da, arbitraj prosesin mərhələsindən asılı olaraq müxtəlif yanaşmaların tətbiqi Ümumi Standartlara zidd olardı.

**(g)** Ümumi Standart 3(c)-yə dair İzahda göstərildiyi kimi, etiraz yalnız obyektiv meyar təmin olunduqda qəbul edilə bilər və bunun nəticəsi olaraq Ümumi Standart 3(g)-dən aydın görünür ki, tərəflərin fikrincə arbitrin müstəqilliyi və qərəzsizliyi barədə şübhələr yarada biləcək müəyyən fakt və halların açıqlanmaması mütləq şəkildə maraqlar toqquşmasının mövcudluğunu və ya arbitrin vəzifədən kənarlaşdırılmasının zəruriliyini ifadə etmir.

**(4) Tərəflərin etiraz etmək hüququndan imtinası**

**(a)** Əgər 30 gün müddətindən

**(i)** sonra arbitr tərəfindən açıqlanmış məlumatları əldə edilə, və ya

**(ii)** arbitr haqqında maraqlar toqquşması yarada biləcək fakt və halları başqa yolla öyrənilsə

tərəf Ümumi Standartın (b) və (c) bəndlərinə uyğun olaraq həmin arbitrə açıq şəkildə etiraz etməzsə, tərəf həmin fakt və hallara əsaslanan mümkün maraqlar toqquşmasına etiraz etmək hüququndan imtina etmiş sayılır və sonrakı mərhələlərdə həmin fakt və hallara əsaslanaraq hər hansı etiraz irəli sürməyə bilər.

4(a)(ii) bəndinə uyğun olaraqtərəf hər hansı faktlar və ya hallar barədə məlumat, icraatın əvvəlində və ya gedişində ağlabatan sorğu nəticəsində, əldə etmiş hesab edilir.

**(b)** Əgər etirazdan imtinanın yolverilməz olduğu halların Qırmızı Siyahısında göstərilən faktlar və ya hallar mövcuddursa, tərəfin maraqlar toqquşmasına istinad etmək hüququndan imtinası (o cümlədən Ümumi Standart 3(b)-də nəzərdə tutulmuş bəyanat və ya əvvəlcədən imtina) və ya tərəflərin belə şəxsin arbit kimi təyin olunmasına dair razılığı etibarsız hesab edilir.

**(c)** Etirazdan imtinanın yolverilən hallar üzrə Qırmızı Siyahıda göstərilən maraqlar toqquşması halı mövcud olduqda müvafiq şəxs arbitr qismində çıxış etməməlidir. Bununla belə, aşağıdakı şərtlər əməl olunduğu halda həmin şəxs arbitr təyin edilməsi ilə bağlı müraciəti qəbul edə və ya arbitr kimi fəaliyyət göstərməyə davam etdirə bilər:

**(i)** bütün tərəflər, bütün arbitrlər, habelə arbitraj institutu və ya digər təyin edən orqanı (əgər mövcuddursa) maraqlar toqquşması barədə tam məlumata malikdirlər; və

**(ii)** tərəflər maraqlar toqquşmasının mövcud olmasına baxmayaraq, həmin şəxsin arbitr kimi fəaliyyət göstərməsinə açıq şəkildə razıdırlar.

**(d)** Arbitr icraatın istənilən mərhələsində mübahisənin barışıq, mediasiya və ya digər vasitələrlə həllinə nail olmaqda tərəflərə kömək edə bilər. Lakin bunu etməzdən

əvvəl arbitr belə bir fəaliyyət onun arbitr kimi fəaliyyətini davam etdirməkdən kənarlaşdırılmaması barədə tərəflərin açıq razılığını almalıdır. Belə bir açıq razılıq arbitrin həmin prosesdə iştirakından və ya proses zamanı öyrənəcəyi məlumatlardan irəli gələ biləcək maraqlar toqquşması münasibətdə effektiv etiraz hesab olunur.
Arbitrin göstərdiyi kömək nəticəsində mübahisənin yekun həllinə nail olmadıqda, tərəflər verdikləri etiraza bağlı qalmağa davam edirlər. Bununla belə, Ümumi Standart 2(a)-ya əsasən, müvafiq razılaşma olsa belə, arbitrin barışıq prosesində iştirakı nəticəsində onun icraatın növbəti mərhələlərində qərəzsizliyi və müstəqilliyi barədə şübhə yaranarsa, arbitr istefa verməlidir.

***Ümumi Standart 4-ə dair izah:***

**(a)** Ümumi Standart 4(a)-ya əsasən, tərəf potensial maraqlar toqquşmasına dair 30 gün ərzində etiraz irəli sürmədikdə, həmin tərəf müvafiq maraqlar toqquşmasından imtina etmiş hesab olunur. Bu müddət tərəfin müvafiq faktlar və hallar barədə, o cümlədən açıqlama prosesi vasitəsilə, məlumat əldə etdiyi gündən hesablanmalıdır.
**(b)** Ümumi Standart 4(b) etirazdan imtinanın yolverilməz olduğu halların Qırmızı Siyahısında təsvir edilmiş fakt və halları Ümumi Standart 4(a)-nın tətbiq dairəsindən çıxarmağa xidmət edir. Bəzi arbitrlər gələcəkdə yarana biləcək fakt və hallara dair tərəflərin etiraz etməkdən imtinasına nail olmağa yönəlmiş bəyanatlar verirlər. Bununla belə, Ümumi Standart 3(b)-də nəzərdə tutulduğu kimi, arbitrin tələb etdiyi belə bir imtina halından asılı olmayaraq, arbitraj prosesi zamanı meydana çıxan fakt və hallar arbitrin davam edən məlumat açıqlama öhdəliyi çərçivəsində tərəflərə açıqlanmalıdır.
**(c)** Etirazdan imtinanın yolverilən hallar üzrə Qırmızı Siyahıda göstərilmiş nümunəyə bənzər ciddi maraqlar toqquşması mövcud olsa da, tərəflər belə şəxsin arbitr kimi

xidmət etməsini arzulaya bilərlər. Belə olan halda tərəflərin iradə muxtariyyəti ilə arbitrlərin qərəzsiz və müstəqil olması tələbi arasında tarazlıq təmin edilməlidir. Etirazın imtinasına yol verilən Qırmızı Siyahıda göstərilən nümunələrə bənzər ciddi maraqlar toqquşmasına səbəb olan şəxslər yalnız tərəflər tam məlumatlı olduqları və etiraz etməkdən açıq şəkildə etiraz etdikləri halda arbitr qismində çıxış edə bilərlər.

**(d)** Arbitraj Tribunalın icraat zamanı tərəflərə mübahisənin barışıq yolu ilə həlli üçün dəstək göstərilməsi konsepti bəzi yurisdiksiyalarda yaxşı formalaşmış olsa da, digərlərində elə deyil. Bu cür prosesdən əvvəl tərəflərin məlumatlı razılığı potensial maraqlar toqquşmasına dair effektiv etiraz hesab edilməlidir. Bəzi yurisdiksiyalarda belə razılığın yazılı formada və tərəflərin imzası ilə olması tələb edilə bilər. Tətbiq olunan hüququn tələblərinə əsasən, açıq şəkildə verilmiş razılıq kifayət ola bilər, və bu razılıq arbitraj dinləməsi zamanı verilə və icraatın protokolunda və ya stenoqramında əks etdirilə bilər.

Bundan əlavə, arbitrin barışıq prosesində iştirakıdan tərəflərin arbitrin uzaqlaşdırılmasına əsas kimi istifadə etmələrinin qarşısını almaq məqsədilə, Ümumi Standartda , barışıq prosesi uğursuz olsa belə, tərəflərin etiraz etmək hüquqlarından verdikləri etiraz qüvvədə qaldığına dair aydınlıq gətirmişdir. Tərəflər açıq şəkildə razılıq verərkən arbitrin barışıq prosesində onlara dəstək göstərilməsi nəticələrini, o cümlədən, arbitrin istefa verilməsi riskini dərk etməlidirlər.

## (5) Tətbiq dairəsi

**(a)** Bu Təlimatlar kollegiyanın sədrlərinə, təkbaşına arbitrlərə və arbitraj məhkəməsinin üzvlərinə eyni şəkildə tətbiq olunur.

**(b)** Arbitraj və inzibati katiblərdən və köməkçilərdən, fərdi arbitrə və ya Arbitraj Tribunalına, arbitrlərlə eyni

müstəqillik və qərəzsizlik öhdəliyinə tabedirlər və arbitraj icraatının bütün mərhələlərində bu öhdəliyə riayət olunmasını təmin etmək Arbitraj Kollegiyasının məsuliyyətindədir.

***Ümumi Standart 5-ə dair izah:***

**(a)** Arbitraj Tribunalının hər bir üzvü tərəflərə münasibətdə qərəzsiz və müstəqil olmaq öhdəliyini daşıdığı üçün, Ümumi Standartlar təkbaşına arbitr, kollegiyanın sədri, tərəflərin təyin etdiyi arbitr və ya institut tərəfindən təyin olunmuş arbitr arasında fərq qoymur.

**(b)** Bəzi arbitraj institutları arbitraj habelə inzibati katiblərindən, köməkçilərdən müstəqillikləri və qərəzsizlikləri barədə bəyanat imzalamağı tələb edir. Belə bir tələbin mövcud olub-olmamasından asılı olmayaraq, Arbitraj Tribunalın arbitraj və ya inzibati katibləri və köməkçiləri arbitrlərlə eyni müstəqillik və qərəzsizlik öhdəliyi (məlumat vermə öhdəliyi də daxil olmaqla) daşıyırlar və arbitraj icraatının bütün mərhələlərində bu öhdəliyə riayət olunmasını təmin etmək Arbitraj Tribunalın məsuliyyətindədir. Bundan əlavə, bu öhdəlik həm Arbitraj Tribunalın və ya Arbitraj Tribunalının arbitraj habelə inzibati katiblərinə və ya köməkçilərinə şamil edilir.

**(6) Münasibətlərin mövcudluğu**

**(a)** Arbitr, prinsip etibarı ilə, arbitrin hüquq şirkəti və ya işəgötürənin eyniyyətini daşıyır; lakin potensial maraqlar toqquşmasının və ya məlumat açıqlama zəruriliyini olub-olmamasını müəyyən etmək məqsədilə faktların və halların aktuallığını qiymətləndirərkən, arbitrin hüquq şirkətinin və ya işəgötürəninin fəaliyyəti (əgər mövcuddursa), hüquq şirkətinin və ya işəgötürənin təşkilati strukturu və fəaliyyət növü, eləcə də arbitrin hüquq şirkəti və ya işəgötürəni ilə münasibəti hər bir fərdi halda ayrı-ayrı nəzərdən keçirilməlidir. Arbitrin hüquq şirkətinin və ya işəgötürəninin

fəaliyyətində tərəflərdən birinin iştirakı faktı özü-özlüyündə maraqlar toqquşmasının mənbəyi və məlumat vermə öhdəliyinin yaranması əsası kimi müəyyən olunmamalıdır. Eyni qaydada, əgər tərəflərdən biri arbitrin hüquq şirkətinin və ya işəgötürəni ilə münasibətləri olan bir qrupun üzvüdürsə, bu fakt hər bir halda ayrıca nəzərə alınmalıdır, lakin özü-özlüyündə maraqlar toqquşmasının olması və ya məlumat açıqlama səbəbi yaranması üçün əsas səbəb kimi nəzərə alınmalıdır.

**(b)** Tərəflərdən biri üzərində nəzarət imkanına malik olan, arbitraj qərarının nəticəsində iqtisadi marağı olan və ya həmin qərarın əsasında yaranan zərərin qarşılamağı öhdəliyi daşıyan hər hansı hüquqi və ya fiziki şəxs, həmin tərəflə eyniləşdirilə bilər.

**(c)** Tərəflərdən birinin nəzarət imkanının üzərində olduğu hər hansı hüquqi və ya fiziki şəxs həmin tərəflə eyniləşdirilə bilər.

***Ümumi Standart 6-ya dair izah:***

**(a)** Tərəfin öz mülahizəsinə uyğun olaraq böyük hüquq şirkətinin hüquqşünası, şirkət və ya digər təşkilatın əməkdaşı olan arbitri təyin etməsindəki maraqları ilə beynəlxalq arbitrlərin qərəzsizliyinə və müstəqilliyinə olan etimadın qorunması zərurəti arasında tarazlıq təmin edilməsi ehtiyacı var. Arbitr, əsas etibarilə, təmsil etdiyi hüquq şirkətinin və ya işlədiyi təşkilatın eyniyyətini daşıyan şəxs kimi hesab edilməlidir, lakin arbitrin hüquq şirkətin və ya işəgötürəninin fəaliyyəti avtomatik olaraq maraqlar toqquşması yaradan hal kimi qiymətləndirilməməlidir. Hər işin halında (i) arbitrin hüquq şirkətinin və ya işəgötürəninin fəaliyyəti, həmin hüquq şirkəti və ya işəgötürən tərəfindən görülən işin mahiyyəti, vaxtı və miqyası; (ii) hüquq şirkətinin və ya işəgötürənin təşkilati strukturu və fəaliyyət forması; (iii) arbitrin həmin hüquq şirkəti və ya işəgötürənlə olan münasibəti nəzərə alınmalıdır. Tərəflə bağlı əlaqələr bəzən hüquqi

təmsilçilikdən fərqli fəaliyyətləri əhatə etdiyindən, Ümumi Standart 6(a)-da "təmsil etmək" (acting for) ifadəsi əvəzinə "əlaqəli olmaq" (involve) anlayışı istifadə olunur. Arbitraj prosesində iştirak edən tərəf şirkətlər qrupunun üzvü olduğu halda, maraqlar toqquşması ilə bağlı xüsusi suallar yaranmaqdadır. Müxtəlif korporativ strukturlar olduğundan bütün hallara tətbiq edilən vahid bir qaydanın olması məqsədəuyğun hesab edilmir. Bunun əvəzinə, eyni şirkətlər qrupuna daxil olan başqa hüquqi şəxs ilə əlaqənin dəqiq halların və həmin hüquqi şəxsin arbitrin işlədiyi hüquq şirkəti və ya işəgötürəni ilə münasibəti hər bir fərdi hal üçün ayrıca nəzərə alınmalıdır.

Beynəlxalq hüquq praktikasının strukturundakı inkişaf, Ümumi Standart 6(a)-nın məqsədləri üçün hüquq şirkətinin nə ifadə etdiyi barədə suallar doğurur. Ümumi yanaşmaya görə, bu məqsədlər üçün hüquq şirkəti dedikdə, arbitrin partnyoru və ya istənilən vəzifə altında işçi, ştatlı və ya qeyri-ştatlı hüquq məsləhətçisi qismində rəsmi şəkildə əlaqəli olduğu hər hansı şirkət nəzərdə tutulur. Müxtəlif hüquq şirkətlərinin əməkdaşlıq etdiyi və/və ya mənfəətlərini bölüşdüyü strukturlar arbitrin digər hüquq şirkətlərinin eyniyyətini daşıdığı qənaətinə gəlmək üçün əsas ola bilər. Eyni şəkildə, baxmayaraq ki, baristerlər kollegiyası maraqlar toqquşmasının müəyyən edilməsi məqsədilə hüquq şirkətləri ilə eyniləşdirilməməlidir, baristerlər, tərəflər və/və ya hüquqi nümayəndələr arasında mövcud ola biləcək əlaqələr barədə məlumatın açıqlanması zərurəti yarana bilər.

**(b)** Beynəlxalq arbitrajda tərəf hüquqi şəxs olduqda, digər hüquqi və fiziki şəxslər bu hüquqi şəxs üzərində nəzarət imkanına malik və/və ya arbitraj qərarında birbaşa iqtisadi marağı ola bilər, yaxud həmin qərar əsasında yaranmış zərərin qarşısını almaq öhdəliyi daşıya bilər. Hər bir vəziyyət fərdi qiymətləndirilməlidir və Ümumi Standart 6(b)-yə əsasən belə şəxslər həmin tərəf kimi qəbul edilə bilər. Belə

nəzarət, maraqlar və ya zərərin qarşılanması öhdəlikləri fiziki şəxslər münasibətdə yarana bilər və bu oxşar nəticəyə çıxarır.

Üçüncü tərəf təminatçıları və sığortaçılar mübahisə predmetinə çevrilmiş işin aparılması və ya müdafiəsi ilə bağlı birbaşa iqtisadi marağa, tərəf üzərində nəzarət imkanına və ya prosesin gedişinə, o cümlədən arbitrların seçiminə təsir imkanına malik ola bilərlər. Bu fərqlər həmin hüquqi şəxslərin tərəfin eyniliyini daşıyıb-daşımadıqlarının müəyyən edilməsi baxımından əhəmiyyət kəsb edə bilər.

**(c)** Ümumi Standart 6(c)-yə əsasən, ana şirkət arbitraj prosesinin tərəfidirsə, ana şirkətin törəmə şirkətin üzərində nəzarətedici təsiri olduqda, törəmə şirkət də ana şirkəti ilə eyniləşdirilə bilər. Eyni prinsip fiziki şəxslərə də şamil olunur. Məsələn, əgər fiziki şəxs arbitraj prosesinin tərəfidirsə, onun tam nəzarət etdiyi və ona məxsus olan şirkət həmin fiziki şəxslə eyniləşdirilə.

Dövlətlərə gəldikdə, onların strukturu adətən regional və ya bələdiyyə orqanları, və ya mərkəzi hökumətdən hüquqi və siyasi cəhətdən müstəqil ola bilən muxtar qurumlar kimi ayrı-ayrı hüquqi şəxslərdən ibarət olur. Bu kimi münasibətlər "nəzarət imkanı" və ya "birbaşa iqtisadi maraq" kimi meyarlarla uyğun olmaya bilər. Belə qurumların arasındakı münasibətlər müxtəlif olduğu üçün, bütün hallara tətbiq edilən qayda müəyyən edilməsi məqsədəuyğun hesab edilmir. Bunun əvəzinə, münasibətin müəyyən halları və həmin münasibətin mübahisənin predmeti ilə əlaqəsi hər bir ayrı halda fərdi nəzərə alınmalıdır. Beləliklə, dövlət və ya dövlət qurumu, orqanı, bölməsi arbitraj prosesində tərəf kimi çıxış edirsə —belə şəxsin statusu mübahisəlidirsə belə — arbitr regional və ya bələdiyyə hakimiyyəti orqanları, muxtar qurumlar və ya dövlət iştiraklı şəxslərlə olan əlaqələrin açıqlanmasına ehtiyac olub-olmadığını müəyyən etməlidir və bu zaman həmin şəxslərin dövlətin bir hissəsi olub-olmadığı

və ya özəl hüquqi statusa malik olub-olmadığı (və ya əksinə) nəzərə alınmamalıdır.

**(7) Tərəflərin və Arbitrin Öhdəlikləri**

**(a)** Tərəf aşağıdakı ilə bağlı arbitri, Arbitraj Tribunalı, digər tərəfləri və arbitraj institutları və ya təyin edən orqanı (mövcuddursa) məlumatlandırmalıdır:

**(i)** arbitr ilə aşağıdakılar arasında mövcud olan birbaşa və ya dolayı münasibət barədə tərəf:

- tərəf;
- eyni şirkətlər qrupuna daxil olan başqa bir şirkət;
- arbitraj tərəfi üzərində nəzarət imkanına malik olan fiziki və ya hüquqi şəxs;
- fiziki və ya hüquqi şəxs üzərində tərəfin nəzarət imkanına malik olduğu; və ya
- arbitraj qərarında birbaşa iqtisadi marağı olan və ya həmin qərara əsasən yaranmış zərərin qarşılamaq öhdəliyi daşıyan hər hansı fiziki və ya hüquqi şəxs;

**(ii)** tərəfin fikrincə, Ümumi Standart 3-ə uyğun olaraq arbitrin açıqlama verərkən nəzərə almalı olduğu digər fiziki və ya hüquqi şəxslə.

Tərəf bunu öz təşəbbüsü ilə və mümkün olan ilk fürsətdə etməlidir.

**(b)** Ümumi Standart 7(a)-ya tələblərinə əməl etmək üçün tərəf ağlabatan araşdırmalar aparmalı və ona məlum olan bütün müvafiq məlumatları təqdim etməlidir.

**(c)** Tərəf arbitraj prosesində iştirak edən hüquqi nümayəndəsinin şəxsiyyəti, eləcə də həmin nümayəndə ilə arbitr arasında mövcud olan istənilən əlaqə, o cümlədən eyni baristerlər kollegiyasına üzvlük barədə arbitri, Arbitraj Tribunalı, digər tərəfləri və arbitraj institutları və ya təyin edən orqanı (mövcuddursa) məlumatlandırmalıdır. Tərəf bunu öz təşəbbüsü ilə mümkün olan ilk fürsətdə və

hüquqşünas heyətində hər hansı dəyişiklik baş verdiyi halda etməlidir.

**(d)** Arbitr maraqlar toqquşmasını, habelə onun qərəzsizliyi və ya müstəqilliyi barədə şübhələrə əsas yarada biləcək faktları və ya halları müəyyən etmək məqsədilə ağlabatan araşdırmalar aparmaq öhdəliyi daşıyır. Əgər arbitr bu cür araşdırmanı aparmayıbsa, məlumatsızlıq maraqlar toqquşmasını açıqlamamaq üçün əsas sayıla bilməz.

***Ümumi Standart 7-yə dair izah:***

**(a)** Tərəflər arbitr ilə aralarında olan istənilən münasibət barədə məlumat verməlidir. Bu cür münasibətlərin açıqlanması arbitrin təyin olunmasından sonra əldə edilmiş məlumata əsasında arbitrin qərəzsizliyi və ya müstəqilliyinə qarşı əsassız etiraz irəli sürülməsi riskini azaldacaqdır. Tərəflərin arbitr ilə (və/və ya eyni şirkətlər qrupuna daxil olan digər şirkətlə, və/və ya arbitraj prosesində tərəf üzərində nəzarətedici təsirə malik olan şəxslə, və/və ya tərəfin nəzarətedici təsir göstərdiyi fiziki və ya hüquqi şəxslə) mövcud olan istənilən birbaşa və ya dolayı əlaqəni açıqlamaq öhdəliyi, arbitraj prosesində çıxarılacaq qərarda birbaşa iqtisadi marağı olan və ya həmin qərarın nəticəsində tərəfin zərərini qarşılamaq öhdəliyini üzərinə götürmüş fiziki və ya hüquqi şəxslərlə olan əlaqələri də əhatə edir — məsələn, arbitrajın maliyyələşdirilməsini təmin edən subyektlərlə.
Tərəflər arbitrin açıqlamalar verərkən nəzərə almalı olduğunu düşündükləri fiziki və ya hüquqi şəxslərin siyahısını təqdim etdikdə, həmin şəxslərin arbitrajda baxılan mübahisə ilə əlaqəsini izah etməlidirlər.

**(b)** Tərəflər açıqlama öhdəliklərini yerinə yetirmək üçün onlara ağlabatan şəkildə əlçatan olan müvafiq məlumatları araşdırmalıdır. Bundan əlavə, arbitraj tərəfin prosesin əvvəlində və bütün gedişi boyunca ağlabatan səylər göstərərək, Ümumi Standartlara əsasən arbitrin

qərəzsizliyinə və ya müstəqilliyinə təsir göstərə biləcək mövcud məlumatları müəyyən etməli və açıqlamalıdır.
**(c)** Tərəflər prosesdə hüquqi məsləhət verən və ya iştirak edən hüquqşünasın şəxsiyyəti mümkün olan ilk fürsətdə müəyyən etməlidirlər. Tərəfin arbitraj prosesində iştirak edəcək hüquqşünasın kimliyini açıqlamaq öhdəliyi həmin tərəfin hüquqşünas heyətinin bütün üzvlərinə şamil olunur və bu öhdəlik prosesin əvvəlindən etibarən yaranır.
**(d)** Təlimatlara uyğun olaraq açıqlama öhdəliklərini yerinə yetirmək üçün arbitr onun üçün ağlabatan şəkildə əlçatan olan hər hansı müvafiq məlumatları araşdırmalıdır.

## II Hissə: Ümumi Standartların Praktiki Tətbiqi

**1.** Praktiki baxımdan əhəmiyyətli təsirə malik olmsı üçün Təlimatlar Tətbiq Siyahılarında müasir arbitraj praktikasında rast gəlinməsi ehtimal olunan halları nəzərdən keçirir. Bununla belə, bu siyahılar bütün mümkün halları əhatə edə bilməz və bütün hallarda nəticə Ümumi Standartlara əsaslanmalıdır, başqa sözlə, Ümumi Standartlar nümunəvi Tətbiq Siyahılarından üstün qüvvəyə malikdir.
**2.** Qırmızı Siyahı iki hissədən ibarətdir: "Etirazdan imtinanın yolverilməz olduğu halların Qırmızı Siyahısı" (Ümumi Standartlar 2(d) və 4(b)-yə bax) və "Etirazdan imtinanın yolverilən hallar üzrə Qırmızı Siyahı" (Ümumi Standart 4(c)-yə bax). Bu siyahılar tam olmayan xarakter daşıyır və işin faktiki hallarından asılı olaraq, arbitrin qərəzsizliyi və müstəqilliyi ilə bağlı əsaslı şübhələr doğura biləcək halları təsvir edir. Yəni sözügedən hallarda, müvafiq faktlar və hallar barədə məlumatlı olan ağlabatan üçüncü şəxsin nöqteyi-nəzərindən maraqların toqquşması mövcuddur (Ümumi Standart 2(b)-yə bax). Etirazdan imtinanın yolverilməz olduğu halların Qırmızı Siyahısı, heç kəsin öz işində hakim ola bilməyəcəyi prinsipindən irəli gələn halları əhatə edir.

Bu səbəbdən, belə halların qəbul edilməsi konfliktin aradan qalxmasına səbəb ola bilməz. Etirazdan imtina edilməsinə yol verilən hallar üzrə Qırmızı Siyahı isə ciddi, lakin nisbətən daha az ağır halları əhatə edir. Narıncı Siyahıda təsvir edilən hallardan fərqli olaraq, bu hallardan, onların ciddiyyəti səbəbindən, tərəflərin maraqların toqquşması vəziyyətindən xəbərdar olduqları, Ümumi Standart 4(c)-də qeyd olunduğu kimi, belə bir şəxsin arbitr fəaliyyətin göstərməsinə razı olduqlarını açıq şəkildə bildirildiyi təqdirdə imtina edilə bilən sayılmalıdır.

**3.** Narıncı Siyahı konkret işin faktlarından asılı olaraq tərəflərin baxış bucağına görə arbitrin qərəzsizliyi və ya müstəqilliyi barədə şübhələr yarada biləcək xüsusi halların məhdud siyahısıdır. Buna görə Narıncı Siyahıya Ümumi Standart 3(a)-ya əks olunmuş hallar daxildir və nəticə etibarilə arbitr belə halları açıqlamaq öhdəliyi daşıyır. Bu halların hamısında, Ümumi Standart 4(a)-da müəyyən edildiyi kimi, açıqlamadan sonra vaxtında etiraz edilmədiyi təqdirdə, tərəflər arbitri qəbul etmiş hesab olunurlar.

**4.** Məlumatın açıqlanması maraqların toqquşmasının mövcudluğunu ifadə etmir və özü-özlüyündə arbitrin uzaqlaşdırılmasına və ya belə bir ehtimalın yaranmasına səbəb olmamalıdır. Məlumatın açıqlanması məqsədi arbitrin qərəzsizliyi və ya müstəqilliyi ilə bağlı obyektiv şəkildə, yəni müvafiq faktlar və şərtləri bilən ağlabatan üçüncü tərəfin nöqteyi-nəzərindən - əsaslı şübhənin olub-olmadığını müəyyən etmək üçün tərəfləri daha ətraflı araşdırmaq istəyə biləcəkləri vəziyyət barədə xəbərdar etməkdir. Əgər belə şübhələrin olmadığı qənaətinə gəlinirsə, arbitr fəaliyyət göstərə bilər. Eyni zamanda, Etirazdan imtinanın yolverilməz olduğu halların Qırmızı Siyahısına daxil olan hallar istisna olmaqla, tərəflər vaxtında etiraz etmədikdə və Etirazdan imtina edilməsinə yol verilən hallar üzrə Qırmızı Siyahıda göstərilən hallarda, tərəflər Ümumi Standart 4(c)-

yə uyğun şəkildə açıq razılıq verdikdə arbitr fəaliyyət göstərə bilər. İmtina edilə bilən qırmızı siyahıya aid hallarda isə bu, yalnız tərəflər Ümumi Standart 4(c)-yə uyğun olaraq açıq şəkildə razılıq verdikdə mümkündür. Əgər tərəflərdən biri arbitrə etiraz etdikdə etiraza baxan səlahiyyətli orqan həmin etirazın Ümumi Standart 2-yə verilmiş izahda göstərilən səlahiyyətə xitam verilməsinin obyektiv meyarlarına cavab vermədiyini qərarına gələrsə, arbitr fəaliyyətinə davam edə bilər.

**5.** Arbitrin belə faktları və ya halları açıqlamamasına əsaslanan etiraz birbaşa olaraq onun təyin edilməməsinə, sonradan səlahiyyətinə xitam verilməsinə və ya qəbul olunmuş qərara etiraz edilməsinə səbəb olmamalıdır. Ümumi Standart 3(g)-də nəzərdə tutulduğu kimi, məlumatın açıqlanmaması faktı özlüyündə arbitrin qərəzli və ya müstəqil olmaması anlamına gəlmir; arbitrin qərəzsizliyinə və ya müstəqilliyinə dair şübhələr yalnız açıqlanmayan faktlar və hallar əsasında yarana bilər.

**6.** Narıncı Siyahıda göstərilməyən və ya siyahının bəzi hissələrində nəzərdə tutulmuş müddətlərin çərçivəsindən kənara çıxan hallarla münasibətdə açıqlama verilməsinin zəruriliyi ilə bağlı hər hansı bir prezumpsiya mövcud deyil. Bununla belə, arbitr Narıncı Siyahıda qeyd olunmasada, həmin halın tərəflərdə arbitrin qərəzsizliyi və müstəqilliyi ilə bağlı şübhələr doğurub-doğurmayan hər bir vəziyyəti müəyyən etməlidir. Narıncı siyahı nümunələrin məhdud siyahı olduğundan, orada göstərilməyən, lakin şəraitdən asılı olaraq arbitr tərəfindən açıqlanmalı olan hallar ola bilər. Məsələn, Narıncı Siyahıda nəzərdə tutulmuş üç illik artıq müddətdən tərəf və ya eyni hüquqşünasın keçmiş təyinatların təkrarlanması və ya arbitrin əlaqəsi olmayan iş üzrə paralel şəkildə hüquqi nümayəndə qismində çıxış etməsi və həmin işdə oxşar məsələlərin meydana çıxması ilə bağlı ola bilər.

Eyni zamanda, eyni tərəf və ya eyni vəkil tərəfindən arbitrin, iş davam edərkən, yeni təyin edilməsi də şəraitdən asılı olaraq açıqlanmalı ola bilər.

Təlimatlar arbitrin əvvəllər Arbitraj Tribunalın digər üzvü ilə və ya hazırkı iş üzrə tərəflərin hüquqi nümayəndələrindən biri ilə eyni tribunalda iştirak etməsi faktının açıqlanmasını hər zaman tələb etməsə də, arbitr hər bir vəziyyəti ayrıca qiymətləndirməli və Arbitraj Tribunalın digər üzvü ilə birgə tribunal tərkibində və ya hüquqi nümayəndə qismində dəfələrlə iştirak etməsi tərəflərdə heyət daxilində balansın pozulması təəssüratı yarada bilərsə və bu, işin fakt və hallarına əsasən arbitrin qərəzsizliyi və müstəqilliyi ilə bağlı şübhələrə səbəb ola bilərsə, həmin məlumat açıqlanmalıdır.

**7.** Yaşıl Siyahı subyektiv və ya obyektiv meyarlara görə maraqlar toqquşmasının görünmədiyi və mövcud olmadığı xüsusi halların məhdud siyahısıdır. Bu səbəbdən Yaşıl Siyahıya daxil olan hallarda arbitr açıqlama öhdəliyi daşımır. Ümumi Standart 3(a)-ya verilmiş izahda qeyd edildiyi kimi, Yaşıl Siyahı ağlabatanlıq meyarı əsasında açıqlama öhdəliyinə müəyyən həddin olduğunu əks etdirir.

**8.** Siyahıları təşkil edən kateqoriyalar arasındakı sərhəd bəzən incə ola bilər. Hər hansı bir halın bir siyahıda yox, başqa bir siyahıda yer almalı olub-olmaması mübahisə mövzusu ola bilər. Bundan başqa, müxtəlif hallar üzrə siyahılarda “əhəmiyyətli” və “müvafiq” kimi ümumi terminlər istifadə olunur. Siyahılar mümkün qədər beynəlxalq prinsipləri və ən yaxşı təcrübələri əks etdirir. Hər bir işin faktları və halları nəzərə alınmaqla ağlabatan şəkildə şərh edilməli olan normalara əlavə izahı verilməsi mənfi nəticəyə səbəb ola bilər.

**(1) Etirazdan imtinanın yolverilməz olduğu halların Qırmızı Siyahısı**

**1.1** Tərəf və arbitr eyni şəxsdir, yaxud arbitr arbitraj prosesində tərəfin səlahiyyətli nümayəndəsi və ya həmin tərəfi təmsil edən fiziki və ya hüquqi şəxsin əməkdaşıdır.
**1.2** Arbitr tərəflərdən birinin və ya arbitraj qərarından birbaşa iqtisadi marağı olan şəxsin meneceri, direktoru, müşahidə şurasının üzvü və ya ona nəzarət edən şəxsdir.
**1.3** Arbitr tərəflərdən birində və ya işin nəticəsində əhəmiyyətli maliyyə və ya şəxsi marağa malikdir.
**1.4** Arbitr hazırda və ya mütəmadi olaraq tərəfə və ya tərəfin aidiyyəti şəxsinə[1] məsləhət xidmətləri göstərir və bu fəaliyyət nəticəsində arbitrin özü və ya onun hüquq şirkəti və ya işəgötürəni əhəmiyyətli gəlir əldə edir.

**(2) Etirazdan imtinanın yolverilən hallar üzrə Qırmızı Siyahı**

**1.1** Arbitrin mübahisəyə münasibəti:
**1.1.1** Arbitr tərəflərdən birinə və ya tərəfin aidiyyəti şəxsinə mübahisə ilə bağlı hüquqi məsləhət vermiş və ya ekspert rəyi təqdim edib.
**1.1.2** Arbitr həmin mübahisədə əvvəl iştirak edib.
**1.2** Arbitrin mübahisədə birbaşa və ya dolayı marağı:
**1.2.1** Arbitr tərəflərdən birində və ya tərəfin aidiyyəti şəxsində birbaşa və ya dolayı paylara sahibdir və həmin tərəf və ya aidiyyəti şəxs özəl şirkətdir.
**1.2.2** Arbitrin yaxın ailə üzvü[2] mübahisənin nəticəsi ilə bağlı əhəmiyyətli iqtisadi marağa malikdir.

---

[1] *Tətbiq Siyahıları boyunca "aidiyyəti şəxs" termini şirkətlər qrupuna daxil olan bütün şirkətləri, o cümlədən ana şirkəti, və/və ya arbitrajda tərəf üzərində nəzarət imkanına malik olan fiziki və ya hüquqi şəxsi, və/və ya tərəfin nəzarət imkanına malik olduğu hər hansı fiziki və ya hüquqi şəxsi əhatə edir.*

[2] Tətbiq Siyahıları boyunca "yaxın ailə üzvü" anlayışı həyat yoldaşı, bacı və ya qardaş, övlad, valideyn və ya partnyor, eləcə də arbitr ilə yaxın münasibətdə olan digər ailə üzvlərini ifadə edir.

**1.2.3** Arbitr və ya onun yaxın ailə üzvü mübahisənin tərəfi olmayan, lakin mübahisədə uduzan tərəfin ona qarşı regres tələbi irəli sürə biləcəyi şəxslə sıx münasibətə malikdir.
**1.3** Arbitrin tərəflərlə və ya hüquqşünasla münasibəti:
**1.3.1** Arbitr hazırda və ya mütəmadi olaraq tərəflərdən birini və ya tərəfin aidiyyəti şəxsini təmsil edir və ya ona məsləhət verir, lakin bundan əhəmiyyətli gəlir əldə etmir.
**1.3.2** Arbitr hazırda tərəflərdən birini təmsil edən hüquqşünasa və ya həmin tərəfin hüquqşünası qismində çıxış edən hüquq şirkətinə məsləhət verir və ya onları təmsil edir.
**1.3.3** Arbitr tərəflərdən birini təmsil edən hüquqşünasın hüquq şirkətində hüquqşünasdır.
**1.3.4** Aidiyyəti şəxsin arbitraj prosesindəki mübahisə predmetinə birbaşa cəlb olunduğu arbitraj prosesində, arbitr, tərəflərdən birinin aidiyyəti şəxsinin meneceri, direktoru və ya müşahidə şurasının üzvüdür və ya həmin aidiyyəti şəxs üzərində nəzarət imkanına malikdir.
**1.3.5** Arbitrin hüquq şirkəti və ya işəgötürəni əvvəlcə işdə iştirak edib, lakin sonra iştirakına xitam verilib və arbitr özü bu prosesə cəlb olunmayıb.
**1.3.6** Arbitrin hüquq şirkəti və ya işəgötürəni hazırda tərəflərdən biri və ya tərəfin aidiyyəti şəxsi ilə əhəmiyyətli kommersiya münasibətlərinə malikdir.
**1.3.7** Arbitr tərəflərdən biri ilə, yaxud tərəfin meneceri, direktoru, müşahidə şurasının üzvü, tərəf üzərində nəzarət imkanına malik hər hansı şəxs, tərəfin aidiyyəti şəxsi və ya tərəfi təmsil edən hüquqşünas ilə yaxın ailə münasibətlərinə malikdir.
**1.3.8** Arbitrin yaxın ailə üzvü tərəflərdən birində və ya tərəflərin birinin aidiyyəti şəxsində əhəmiyyətli maliyyə və ya şəxsi marağı vardır.

**(3) Narıncı siyahı**

**1.1** Tərəflərdən birinə göstərilən xidmətlər və ya iş üzrə digər iştirak formaları:

**1.1.1** Arbitr son üç il ərzində tərəflərdən birinin və ya tərəfin aidiyyəti şəxslərindən birinin hüquqşünası qismində çıxış edib, yaxud həmin tərəfdən və ya tərəfin aidiyyəti şəxsindən hüquq konsultasiyası və ya məsləhət alıb, fərqli bir iş üzrə görüş təyin edib, lakin hazırda arbitr ilə həmin tərəf və ya tərəfin aidiyyəti şəxsi arasında davam edən münasibət mövcud deyil.

**1.1.2** Arbitr son üç il ərzində fərqli bir iş üzrə tərəflərdən birinə və ya tərəfin birinin aidiyyəti şəxsinə qarşı hüquqşünas qismində çıxış edib.

**1.1.3** Arbitr son üç il ərzində tərəflərdən biri və ya tərəflərin birinin aidiyyəti şəxsi tərəfindən iki və ya daha çox dəfə arbitr qismində təyin olunub.[3]

**1.1.4** Arbitr son üç il ərzində fərqli işlərdə tərəflərdən biri və ya tərəflərin birinin aidiyyəti şəxsi tərəfindən iki və ya daha çox dəfə simulyasiya proseslərində (mock-trials) və ya iclas hazırlığında kömək etmək üçün təyin olunub.

**1.1.5** Arbitr tərəflərdən birinin və ya tərəflərin birinin aidiyyəti şəxsin iştirak etdiyi, bu mübahisə ilə bağlı olan məsələ və ya iş üzrə digər arbitrajda arbitr və ya hüquqi

---

[3] *Dənizçilik, idman və əmtəə arbitrajı kimi müəyyən növ arbitrajlarda arbitr seçimləri ixtisaslaşmış şəxslər qrupundan və ya məcburi siyahıdan həyata keçirilə bilər. Həmin sahələrdə fəaliyyət göstərən tərəflər eyni arbitrin müxtəlif işlər üzrə təkrar təyin olunması ilə bağlı formalaşmış praktika və ya adət barədə məlumatlı ola bilərlər. Belə hallarda, çoxsaylı təyinatlar barədə məlumatın açıqlanması 3.1.3-cü bölməyə uyğun olaraq məqsədəuyğun sayılsa da, açıqlamanın hüdudları və təkrar təyinatların nəticələri bu Təlimatlarda nəzərdə tutulmuş qaydalardan fərqli ola bilər.*

nümayəndə qismində son üç il ərzində çıxış edib və ya hazırda çıxış etməkdədir.

**1.1.6** Arbitr son üç il ərzində tərəflərdən biri və ya tərəflərin birinin aidiyyəti şəxsi üçün fərqli bir işdə ekspert kimi fəaliyyət göstərib və ya hazırda göstərir.

**1.1.7** Arbitrin hüquq şirkəti və ya işəgötürəni hazırda və ya mütəmadi olaraq hüquq şirkəti və ya işəgötürən üçün əhəmiyyətli kommersiya münasibəti yaratmadan, arbitri cəlb etmədən, tərəflərdən birinə və ya tərəflərin birinin aidiyyəti şəxsinə xidmətlər göstərir və həmin xidmətlər mövcud mübahisəyə aidiyyəti mövcud deyil.

**1.1.8** Əhəmiyyətli haqqları və ya digər gəlirləri Arbitrin hüquq şirkəti və ya işəgötürəni ilə bölüşən hüquq şirkəti və ya digər hüquq təşkilatı, tərəflərdən birinə və ya tərəflərinin birinin aidiyyəti şəxsinə Arbitraj Tribunalı qarşısında xidmətlər göstərir.

**1.2** Arbitrin digər arbitr və ya hüquqşünasla münasibəti:

**1.2.1** Arbitr və digər arbitr eyni hüquq şirkətinin hüquqşünaslarıdır və ya eyni işəgötürənləri vardır.

**1.2.2** Arbitr və digər arbitr və ya tərəflərdən birinin hüquqşünası eyni barristerlər kollegiyasının üzvüdür.

**1.2.3** Arbitr son üç il ərzində digər arbitr və ya arbitraj icraatında iştirak edən hüquqşünaslardan biri ilə işgüzar partnyoru və ya başqa formada aidiyyəti şəxsi olub.

**1.2.4** Arbitrin hüquq şirkətindəki hüquqşünas eyni tərəf və ya tərəflərin birinin aidiyyəti şəxsi ilə bağlı olan mübahisə və ya iş üzrə arbitr qismində çıxış edir.

**1.2.5** Arbitrin yaxın ailə üzvü tərəflərdən birini təmsil edən, lakin bu mübahisədə iştirak etməyən, hüquq şirkətinin partnyoru və ya işçisidir.

**1.2.6** Arbitr ilə tərəflərdən birinin hüquqşünası arasında yaxın şəxsi dostluq münasibəti mövcuddur.

**1.2.7** Arbitr ilə arbitrajda iştirak edən tərəfin hüquqşünası arasında düşmənçilik mövcuddur.

**1.2.8** Arbitr son üç il ərzində eyni hüquqşünas və ya eyni hüquq şirkəti tərəfindən üç dəfədən artıq arbitr qismində təyin olunub.

**1.2.9** Arbitr son üç il ərzində eyni hüquqşünas və ya eyni hüquq şirkəti tərəfindən üç dəfədən artıq ekspert qismində təyin olunub.

**1.2.10** Arbitr son üç il ərzində eyni hüquqşünas və ya eyni hüquq şirkəti tərəfindən üç dəfədən artıq simulyasiya proseslərin və ya iclasların hazırlığına kömək etmək üçün təyin olunub.

**1.2.11** Arbitr və digər arbitr və ya tərəflərdən birinin hüquqşünası son üç il ərzində birgə çıxış etmiş və ya hazırda birgə çıxış edirlər.

**1.2.12** Arbitr və tərəflərdən birinin hüquqşünası hazırda başqa bir arbitraj icraatında birlikdə arbitr qismində çıxış edirlər.

**1.2.13** Arbitr və onun həmkarı-arbitr(lər) hazırda başqa bir arbitraj icraatında birlikdə arbitr qismində çıxış edirlər.

**1.3** Arbitrin tərəf ilə və/və ya arbitraj icraatında iştirak edən digər şəxslərlə münasibəti:

**1.3.1** Arbitrin hüquq şirkəti hazırda tərəflərdən birinə və ya tərəflərin birinin aidiyyəti şəxsinə əleyhinə çıxış edir.

**1.3.2** Arbitr peşəkar fəaliyyətində ekspert, tərəf və ya tərəflərin birinin aidiyyəti şəxsi ilə keçmiş işçisi və ya işgüzar partnyoru kimi əlaqədə olmuşdur .

**1.3.3** Arbitr tərəfin, və ya arbitraj qərarından birbaşa iqtisadi marağı olan hüquqi şəxsin, və ya tərəflərdən birinə və ya tərəflərdən birinin aidiyyəti şəxsi üzrə nəzarət paketinə malik səhmdar kimi nəzarət təsiri olan şəxsin, habelə şahid və ya ekspertin meneceri, direktoru və ya müşahidə şurasının üzvü ilə yaxın şəxsi dostluq münasibəti mövcuddur.

**1.3.4** Arbitr tərəfin, və ya arbitraj qərarından birbaşa iqtisadi marağı olan hüquqi şəxsin, və ya tərəflərdən birinə və ya tərəflərdən birinin aidiyyəti şəxsi üzrə nəzarət təsiri olan

şəxsin, habelə şahid və ya ekspertin meneceri, direktoru və ya müşahidə şurasının üzvü ilə düşmənçilik münasibəti mövcuddur.

**1.3.5** Əgər arbitr əvvəllər hakim olmuşdursa və son üç il ərzində tərəflərdən birinin və ya tərəflərdən birinin aidiyyəti şəxsin iştirakı ilə əhəmiyyətli bir işə baxıb.

**1.3.6** Arbitr hazırkı arbitraj prosesində iştirak edən eksperti, arbitrin hüquqşünas qismində çıxış etdiyi iş ilə əlaqədar başqa mövzuda təlimatlandırır.

**1.4** Digər hallar:

**1.4.1** Arbitr birbaşa və ya dolayı şəkildə, səhmləri təşkilatlanmış bazarda dövriyyəyə buraxılmış olan, miqdarı və ya dəyəri baxımından tərəflərdən birində və ya tərəflərdən birinin aidiyyəti şəxsində əhəmiyyətli iştirakını təşkil edən səhmlərə malikdir.

**1.4.2** Arbitr işlə bağlı mövqeyini dərc olunmuş məqalədə və ya çıxışda, sosial media vasitəsilə, və ya onlayn peşəkar şəbəkə platformalarında və ya digər formada ictimai şəkildə ifadə edib.

**1.4.3** Arbitr mübahisənin idarə olunması ilə məşğul olan qurumda və ya bu mübahisə üzrə arbitrin təyin olunması səlahiyyətinə malik orqanda qərarvermə imkanını nəzərdə tutan rəhbər və ya digər vəzifə tutur və bu vəzifədə arbitraj işi ilə bağlı qərarların qəbulunda iştirak etmişdir.

**1.4.4** Arbitr, arbitraj mübahisəsinin predmetini təşkil edən münasibətlərdə birbaşa iştirak etməyən tərəflərdən birinin aidiyyəti şəxsində, həmin şəxsə idarə təsirinə malik menecer, direktor və ya müşahidə şurasının üzvü vəzifəsi tutur.

**(4) Yaşıl Siyahı**

**4.1** Əvvəllər ifadə edilmiş hüquqi mövqelər:

**4.1.1** Arbitrajda qaldırılan məsələyə dair, Arbitr (hüquqi məqalədə və ya ictimai mühazirədə) hüquqi mövqeyini (bu mövqe bilavasitə həmin işlə bağlı olmayıb) ifadə edib.

**4.2** Hazırda tərəflərdən birinə göstərilən xidmətlər:
**4.2.1** Arbitrin hüquq şirkəti və ya işəgötürəni ilə əməkdaşlıq edən və ya ortaq şəkildə fəaliyyət göstərən, lakin arbitrin hüquq şirkəti və ya işəgötürəni ilə əhəmiyyətli haqq və ya digər gəlirləri bölüşməyən başqa bir şirkət, fərqli bir işdə tərəflərdən birinə və ya tərəfin aidiyyəti şəxsinə xidmətlər göstərir.
**4.3** Digər arbitr və ya tərəflərdən birinin hüquqşünası ilə əlaqələr:
**4.3.1** Arbitr digər arbitr və ya tərəflərdən birinin hüquqşünası ilə eyni peşəkar assosiasiyanın, sosial və ya xeyriyyə təşkilatının üzvlüyü, yaxud sosial media şəbəkəsi vasitəsilə əlaqəyə malikdir.
**4.3.2** Arbitr və tərəflərdən birinin hüquqşünası əvvəllər birlikdə arbitr qismində çıxış ediblər.
**4.3.3** Arbitr, digər arbitr və ya tərəflərdən birinin hüquqşünası ilə eyni fakültə və ya universitetdə dərs deyir və ya peşəkar assosiasiyada, sosial və ya xeyriyyə təşkilatında digər arbitr və ya tərəflərdən birinin hüquqşünası ilə vəzifə tutur.
**4.3.4** Arbitr, digər arbitr və ya tərəflərin hüquqşünası ilə birlikdə bir və ya bir neçə konfransda spiker, moderator və ya təşkilatçı kimi çıxış edib və ya peşəkar, sosial və ya xeyriyyə təşkilatının seminar və ya işçi qruplarında iştirak edib.
**4.4** Arbitrin tərəflərdən biri ilə əlaqələri:
**4.4.1** Arbitr təyin edilməzdən əvvəl, arbitrin arbitr qismində çıxış etmə ehtimalı və onun ixtisası ilə bağlı məsələlərə, habelə sədr vəzifəsinə mümkün namizədlərin müzakirəsinə dair olmuş və mübahisənin mahiyyəti və ya prosesual aspektlərlə dair mövzularla məhdudlaşan şəraitdə tərəflərdən biri, onun aidiyyəti şəxsi (və ya onların hüquqşünas)ı ilə ilkin əlaqədə olub.

**4.4.2** Arbitr açıq səhmdar cəmiyyəti olan tərəflərdən birində və ya tərəflərdən birinin aidiyyəti şəxslərində əhəmiyyət az olacaq sayda paya sahibdir.

**4.4.3** Arbitr və tərəflərdən birinin və ya tərəflərdən birinin aidiyyəti şəxsinin meneceri, direktoru, müşahidə şurasının üzvü və ya ona nəzarət edən hər hansı şəxslə eyni iş üzrə arbitr kimi çıxış etmək daxil olmaqla, birgə ekspert və ya digər peşəkar şəkildə çalınşıb.

**4.4.4** Arbitr tərəflərdən biri və ya onun aidiyyəti şəxsi ilə sosial media şəbəkəsi vasitəsilə əlaqəsi mövcuddur.

**4.5** Arbitrin ekspertlərdən biri ilə əlaqələsi:

**4.5.1** Arbitr başqa bir işdə arbitr qismində çıxış edərkən, hazırkı prosesdə iştirak edən ekspertin ifadəsini dinləyib.

## 14-cü il Təlimatlarının Yenidən Hazırlanması üzrə İşçi Qrupunun üzvləri

*ədr*

**rica Stein**

VA Arbitraj Təlimatları ə Qaydaları Altkomitəsi

022-2024-cü illər üzrə əmsədr

ein Arbitration, Brüssel

*ədr müavini*

**laudia Frutos-Peterson**

urtis Mallet, Vaşinqton

*atiblər*

**avid Blackman**

haffetz Lindsey, Nyu-ork

**iva Dadwal**

ing & Spalding, Nyu-ork

*omanda rəhbərləri*

**icolas Angelet**

ngelet Law, Brüssel

**rina Baltag**

*Üzvlər*

**André Abbud**

BMA Advogados, San-Paulu/Rio-de-Janeyro/Braziliya

**Folashade Alli**

Folashade Alli & Associates, Laqos

**Richard Apphun**

AL Contract Services, Roma

**Benan Arseven**

Moroğlu Arseven, İstanbul

**Giedrė Aukštuolienė**

Ellex, Vilnüs

**Julie Bédard**

Skadden, Nyu-York/San-Paulu

**Pierre Bienvenu**

IMK avocats, Monreal

**David Blackman**

Chaffetz Lindsey, Nyu-York

**Lawrence Boo**

**an Heiner Nedden**

anefeld, Hamburq

**Iarily Paralika**

eldfisher, Paris

**ouise Reilly**

he Law Library, İrlandiya

**Iallory Silberman**

eorgetown University,
aşinqton DC

**ilde van der Baan**

llen & Overy, Amsterdam

**alina Zukova**

ukova Legal, Paris

**Pierre Burger**

Werksmans, Yohannesburq

**Juliana Castillo**
Eviosys, Paris

**Zarina Chinoy**
Panchshil Realty, Pune

**Daniel Heilbron Chrispim**
Galp, Rio-de-Janeyro

**Stephanie Cohen**
Cohen Arbitration, Nyu-York

**Sylvie Bebohi Ebongo**
HBE Avocats, Paris/Yaunde

**Khaled Abou El Houda**
Houda Law Firm, Dakar

**Kun Fan**
UNSW, Sidney

**Lauren Friedman**
King & Spalding, Nyu-York

**Alice Fremuth-Wolf**
Nivalion, Vyana

**Beata Gessel**
Gessel Kancelaria, Varşava

**Tom Glasgow**
Omni Bridgeway, Sinqapur

**Sandra González**

**Dyalá Jimenez**
DJ Arbitraje, San-Xose

**Pál Kara**
MOL Hungarian Oil and Gas Plc, Budapeşt

**Jennifer Kirby**
Kirby Arbitration, Paris/Nyu-York

**Christian Leathley**
HSF, Nyu-York

**Barton Legum**
Honlet Legum, Paris

**Silvia Marchili**
White & Case, Hyuston

**Ricardo Dalmaso Marques**
META, San-Paulu

**Lucy Martinez**
Martinez Arbitration, Sidney/London

**Alexis Mourre**
MGC Arbitration, Paris

**Christa Mueller**
Mueller Abogados, Mexiko-Siti

**Harold Noh**
Kim & Chang, Seul

**Yoshimi Ohara**
Nagashima Ohno &

**Paul Tichauer**
CEO Arbitration, Toronto

**Jiří Urban**
KPMG, Praqa

**Mohamed S. Abdel Wahab**
Zulficar Partners, Qahirə

**Duncan Watson**
Quinn Emanuel, Honq-Konq/Perth